Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

N 233
(4749) CÜMƏ AXŞAMI, 18 OKTYABR 2007-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan.news.az | Qiyməti 20 qəpik

## *Qloballaşma dövründə dövlət və cəmiyyət*

**Ən yüksək mənəvi dəyərləri özündə birləşdirən İslam dini insanların mənən yeniləşməsində və saflaşmasında, cəmiyyətdə əxlaqi dəyərlərin, dostluq və humanizm prinsiplərinin bərqərar olmasında müstəsna rol oynayır, ümumbəşəri mahiyyəti, demokratizmi ilə hər kəsi sülhə, həmrəyliyə və mənəvi kamilliyə dəvət edir. Bunları yaşamaq və yaşatmaq, insanları bu uca, ülvi mənəvi dəyərlər çərçivəsində tərbiyə etmək Allahın buyuruğu, Məhəmməd əleyhissəlamın qoyduğu yoldur.**

**İslam xalqımıza səadət, xoşbəxtlik, inkişaf, mədəniyyət, müqəddəs dəyərlər gətiribdir. Xalqımız İslamı qəbul edənə qədər də böyük mədəniyyətə, mənəvi dəyərlərə malik olub. Müqəddəs kitabımız Qurani-Kərimdən gələn islami dəyərlər isə qədim milli mental baxışlarımızla birgə min üç yüz ildən artıqdır ki, xalqımızın yüksək mənəvi cəhətlərini təşkil edir. Azərbaycanın İslam mədəniyyəti ilə bağlı olan dahi şəxsiyyətləri - Nizami, Füzuli, Nəsimi və klassik ədəbiyyatımızda dərin iz buraxmış digər böyük mütəfəkkirləri dünya sivilizasiyasına böyük töhfələr vermiş, İslam mədəniyyətini və fəlsəfəsini öz yaradıcılıqları ilə zənginləşdirmişlər.**





# Azərbaycan dini dözümlülüyə görə bütün dünyaya nümunədir

## Bu, xalqımızın yüksək tolerant hisslərə malik olmasından irəli gəlir





Xalqımız həmişə Uca Tanrıya tapınmış, qəlbində iman və inam gəzdirmişdir. Milli azadlığımız uğrunda apardığımız bütün mübarizələrdə İslam dini amili hər zaman özünü qabarıq büruzə vermişdir. Həm XX əsrin əvvəllərində, həm sonlarında Azərbaycanda meydana gələn milli azadlıq hərəkatlarında İslam ideyalarının təsiri böyük olmuşdur. Tarixi kökünə, keçmişinə sadiq olan xalqımızın mərdliyinin, vətənə, torpağa bağlılığının, azadlıq uğrunda sarsılmaz mübarizə əzminin və tarixən milli məfkurəmizin formalaşmasında din amili mühüm rol oynamışdır. XIX əsrin ortalarından etibarən Azərbaycanda başlayan maarifçilik hərəkatında, müxtəlif siyasi cərəyanlarda, Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasında İslamın mütərəqqi ideyaları aparıcı xətt təşkil etmişdir. Bu xüsusiyyətlərinə görə İslam dininin tariximizin bütün dövrlərində xalqımızın taleyində böyük rolu olmuşdur.

Sovet İttifaqının mövcud olduğu 70 il ərzində İslam dininə qarşı müharibə elan edilməsinə, ateizm təbliğatının aparılmasına, allahsızlığın kommunist ideologiyasının əsasını təşkil etməsinə baxmayaraq xalqımız müqəddəs dinini unutmamış, ona xilaf çıxmamışdır. Azərbaycan xalqı çətinliklərə, məhrumiyyətlərə, zillətlərə məruz qalsa da, öz dininə, mənəvi dəyərlərinə sadiq olmuş, heç bir qüvvə bunların xalqın yaddaşından silinməsinə nail ola bilməmişdir. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra dini ənənələrimiz yenidən canlanmış, hər bir azərbaycanlı müsəlmanın həyatının mənəvi qanunu olmuşdur. Bu, xalqımızın islam dəyərlərinə olan hörmət və ehtiramı, sədaqəti ilə bağlı idi.

Müstəqil Azərbaycanın memarı və qurucusu olan ulu öndərimiz Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi 34 ildən artıq bir müddət ərzində xalqımızın mənəvi dəyərlərinin yaşaması üçün əlindən gələni etmişdir. Çünki xalqımızın dahi oğlu çox gözəl bilirdi ki, ölkəmizin gələcəyi bilavasitə dərin tarixi keçmişimizin qorunub saxlanmasından, mədəni-mənəvi və o cümlədən dini dəyərlərdən asılıdır. Keçmişi və mental dəyərləri məhv etmək bütöv bir xalqı məhv etmək deməkdir. Bütün bunları çox gözəl başa düşən Heydər Əliyev atacağı ən kiçik addımın belə həyatı bahasına başa gəlməsinin mümkünlüyünə baxmayaraq xalqımızın milli mentalitetinin məhv edilməməsi üçün əlindən gələni edirdi.

Müstəqillik qazandıqdan sonra respublikamızda mənəvi dəyərlərin dirçəldilməsi, məscidlərin və digər müqəddəs ocaqların yenidən qurulması və bərpası Heydər Əliyevin müstəsna xidmətləri sayəsində mümkün olmuşdur. Qafqaz Müsəlmanları İdarəsi də Şeyxülislam Allahşükür Paşazadənin qeyd etdiyi kimi, Heydər Əliyevin tövsiyələri əsasında müasirləşmiş, elmiləşmiş, buraya yeni nəfəs gəlmişdir. İslam dininin əlamətdar günləri münasibətilə hər il Azərbaycan xalqını təbrik edən, dini mərasimlərdə iştirak edən ümummilli lider Heydər Əliyev İslam dininin xalqımızın mənəvi sərvəti olduğunu, İslam yolunun haqq-ədalət yolu olduğunu bildirirdi: **"Biz müsəlmanlar Allah-təalanın buyurduğu, peyğəmbər Məhəmməd əleyhissəlamın bizə göstərdiyi yolla, müqəddəs kitabımız Qurani-Şərifin verdiyi tövsiyələr yolu ilə əsrlər boyu getmişik, bu gün də gedirik. Bu yol sülh yoludur, bu yol mehribanlıq, dostluq, əmin-amanlıq yoludur. Bu yol insanlara səadət gətirən yoldur. Mən fəxr edirəm ki, Azərbaycan müsəlmanları öz müqəddəs dininə itaət etmək, dini ayinlərə, qanunlara-qaydalara riayət etmək üçün indi geniş imkanlar əldə ediblər".**

İslam dini ölkəmizdə tarixi-mənəvi irsin, mədəniyyətin, milli mentalitetin ayrılmaz hissəsi kimi qəbul edilsə də, Azərbaycan dünyəvi və çoxkonfessiyalı dövlətdir. 12 noyabr 1995-ci ildə qəbul edilmiş ölkə Konstitusiyası ilə vicdan azadlığı, zorakılıq təbliğ etməyən, insan ləyaqətini alçaltmayan bütün dinlərə sərbəst inkişaf imkanları yaradılıb. Həqiqətən də insanlar hansı dinə, hansı mədəniyyətə mənsubluğundan asılı olmayaraq, bütün başqa dinlərə, mənəvi dəyərlərə, mədəniyyətlərə hörmət etməli, o dinlərin bəzən kiməsə xoş gəlməyən adət-ənənələrinə dözümlü olmalıdırlar.

İslam dini ilə fəxr edən azərbaycanlılar heç vaxt başqa dinlərə mənfi münasibət göstərməmiş, düşmənçilik, ədavət aparmamış və heç bir xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişdir. Çünki başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq islam dəyərlərinin xüsusiyyətidir. Müsəlmanların müqəddəs kitabı Qurani-Kərimdə İslamdan əvvəlki dinlərə, səmavi kitablara və peyğəmbərlərə böyük ehtiramla yanaşılır, yüksək dözümlülük və mərhəmət duyğuları təbliğ olunur. Azərbaycan nadir ölkələrdəndir ki, burada tarixin heç bir dönəmində milli-dini zəmində qarşıdurma baş verməmişdir. Ölkəmizdə İslam dini ilə yanaşı xristian və yəhudi dinləri də əsrlər boyu yaşayıb və indi də yaşayır. Dini və etnik mənsubiyyətindən asılı olmayaraq respublikamızın bütün vətəndaşları həmrəydirlər. Cəmiyyətimizin əxlaqi-mənəvi yüksəlişi kimi niyyətlərin gerçəkləşməsində, xalqımızın bütövlüyü və birliyi kimi ümummilli məsələlərdə, demokratik Azərbaycanda əmin-amanlığın və vətəndaş həmrəyliyinin qorunub saxlanması işində ölkəmizdə fəaliyyət göstərən bütün dini konfessiyalar yaxından iştirak edirlər.

Çoxmillətli və çoxkonfessiyalı olan Azərbaycanın bütöv bir tarixi mərhələsi Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər ictimai-siyasi həyatın bütün sahələrində, o cümlədən dövlət-din münasibətlərinin sivil prinsiplərə uyğun olaraq tənzimlənməsində, dini etiqad və vicdan azadlığının maneəsiz təminatında, dini-mənəvi, əxlaqi-etik dəyərlərin prioritet yaşayış normalarına çevrilməsində müstəsna xidmətlər göstərmiş, böyük siyasi irsin və dövlətçilik təcrübəsinin təməlini qoymuşdur. Heydər Əliyev hakimiyyətə qayıtdığı ilk vaxtlardan dini azadlığa, ölkəmizdə yaşayan bütün millətlərin dini-mənəvi dəyərlərinin qorunmasına yönəldilən siyasət aparacağını elan etmişdi. Hələ 1994-cü ildə İstanbulda "Sülh və səbir" Beynəlxalq Dini Konfransında çıxışında Heydər Əliyev deyirdi: **"Azərbaycanda İslam dini ilə yanaşı, xristianlıq və iudaizm dinləri də var və onlar bir-biri ilə çox mehriban şəraitdə fəaliyyət göstərirlər. Biz bunu bəyan etmişik. Azərbaycanın prezidenti kimi, mən dəfələrlə qeyd etmişəm ki, ölkəmizin vətəndaşları dini, irqi mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq eyni hüquqlara malikdirlər və onların hüquqları Azərbaycan dövləti tərəfindən qorunur. Əmin ola bilərsiniz ki, biz bu prinsiplərimizə daim sadiq qalacağıq və Azərbaycan vətəndaşlarının din, dil mənsubiyyətindən və siyasi baxışlarından asılı olaraq bir-biri ilə münaqişəyə girməsinə gələcəkdə də yol verməyəcəyik".**

1993-cü ildən sonra ölkəmizdə dini tolerantlığın təmin olunması sahəsində həyata keçirilən mükəmməl siyasət onu göstərir ki, Azərbaycan hökuməti vicdan azadlığına, dini etiqad azadlığına əməl olunması prinsipləri üzərində həqiqətən möhkəm dayanır. Bir çox din xadimlərinin onilliklər ərzində mübarizə apardığı məsələlər Azərbaycanda real olaraq həyata vəsiqə alır. Burda bütün dini konfessiyalar - müsəlman, pravoslav-xristian, katolik və yəhudi icmaları öz vəzifələrini sərbəst surətdə həyata keçirir, qarşılıqlı fəaliyyət göstərir, bütün müxtəlif dinlərə tapınan vətəndaşların həmrəyliyinin möhkəmlənməsinə kömək edirlər. Ölkəmizdə ayrı-ayrı millətlərin, dinlərin nümayəndələri, müxtəlif adətlərə, mədəniyyətlərə mənsub olan insanlar arasında dostluq münasibətlərinin təmin edilməsi dövlətimizin ən böyük nailiyyətlərindən biridir. Müxtəlif millətlərə mənsub olan insanlar bu ölkənin vətəndaşları olaraq sülh və əmin-amanlıq şəraitində yaşayır, bir-birinə hörmət bəsləyirlər. Bir dinin nümayəndəsinin digər konfessiyaya hörmətsiz münasibət bəsləməsinə, başqa xalqın dininə, mədəniyyətinə, adət-ənənələrinə, mənəviyyatına dözümsüzlük göstərməsinə dair xoşagəlməz hal indiyədək müşahidə edilməmişdir. Azərbaycanda yaşayan digər dinlərdən olan xalqların hüquqları heç vaxt pozulmamış, onlar həyatlarında antisemitizmin nə olduğunu heç zaman bilməmişlər. Dünyada elə ölkə yoxdur ki, dini mərasimlərdə həm müsəlman, həm xristian, həm də yəhudi icmalarının nümayəndələri bir yerə toplaşsın. Sülh və dini dözümlülük haqqında hər cür çirkin yalan hesabatlar hazırlayan bəzi beynəlxalq təşkilatlar nə qədər axtarsalar da ölkəmizdə dini tolerantlıqla bağlı qaranlıq məqam tapa bilməyiblər. Olsa da həqiqətə uyğun olmayıb.

Azərbaycandakı bütün dinlərin davamlı birliyinin, dost münasibətinin təmin olunmasında Azərbaycan xalqının özünün də tolerant olması mühüm rol oynayır. Azərbaycan xalqı özlüyündə, təbiətinə görə, öz xarakterinə görə yüksək özünəməxsus tolerantlıq hissinə malikdir. Azərbaycan əhalisinin çox hissəsinin etiqad etdiyi müsəlman dinində, onun kökündə də tolerantlıq var.

Azərbaycan hakimiyyətinin dini qurumlarla bağlı yeritdiyi uğurlu siyasət və faktlar ölkəmizdəki dini tolerantlığın hazırkı durumu barədə aydın təsəvvür yaradır. Məsələn, son illərdə Bakıda vaxtilə bolşeviklər tərəfindən dağıdılmış pravoslav kilsəsi yüksək səviyyədə bərpa edilmiş, katolik kilsəsi tikilmiş, Vatikanın Apostol nunsisi fəaliyyətə başlamışdır. Vaxtilə ləğv edilmiş Rus Pravoslav Kilsəsinin Bakı və Xəzəryanı bölgə Yeparxiyası fəaliyyəti yenidən bərpa edilmişdir. Azərbaycanda xristian kilsəsinin yeni bir yeparxiyası yaranmasının özü burada xristian-müsəlman, rus-azərbaycanlı probleminin olmadığını göstərir. 1999-cü il fevralın 15-də Rus Pravoslav Kilsəsinin müstəqil Bakı və Xəzəryanı Yeparxiyasının başçısı, yepiskop Aleksandrı qəbul edərkən Azərbaycan Prezidenti Heydər Əliyev ölkəmizdə dini ayrı-seçkiliyə heç vaxt yol verilməyəcəyini bəyan edirdi: **"... Heç vaxt yol vermərik ki, digər millətdən, digər dini etiqaddan asılı olan adamlar - İslam dinindən və Azərbaycan millətindən olmayan adamlar hər hansı sıxışdırmaya məruz qalsınlar".**

Ölkəmizdə dinlərarası tolerantlıqdan razılığını ifadə edən Yepiskop Aleksandr dünya dinlərinin - islamın, xristianlığın və yəhudiliyin nümayəndələri arasında mehriban münasibətlərin mövcud olduğu Azərbaycanın MDB-nin və dünyanın bir çox ölkələrinə nümunə göstərdiyini bildirmişdi. 2001-ci ilin mayında Azərbaycana ilk dəfə səfərə gələn Moskvanın və bütün Rusiyanın patriarxı II Aleksi də keçirdiyi görüşlərdə Azərbaycanda dini tolerantlığın səviyyəsinin yüksək olduğunu qeyd edirdi. Ölkəmizdə müxtəlif dinlərə tapınan insanların sülh şəraitində yaşadıqlarını təsdiq edən II Aleksi Heydər Əliyevlə görüşdə ölkəmizdə olan dini tolerantlığa görə ona minnətdarlığını bildirmişdi: **"Ənənəvi dinlərin fəaliyyətinə eyni dərəcədə diqqət yetirdiyinizə və qiymət verdiyinizə görə Rus Pravoslav Kilsəsi adından Sizə təşəkkürümüzü bildirmək istərdik".** II Aleksi Rus Pravoslav Kilsəsinin Bakı və Xəzəryanı bölgə Yeparxiyasına göstərdiyi diqqətə, köməyə və dəstəyə görə Heydər Əliyevi Rus Pravoslav Kilsəsinin birinci dərəcəli müqəddəs mömin Moskva knyazı Daniil ordeni ilə təltif etmişdi.

2002-ci ilin mayında isə Azərbaycana tarixi səfər edən Roma Papası II İohann Pavel da ölkəmizdə dini dözümlülüyün olduğunu, bütün dinlərin sülh içində yanaşı yaşadığını, ayrı-seçkiliyin olmadığını elan etmişdi. 2006-cı ilin mayında Azərbaycana səfərə gəlmiş Vatikanın xarici işlər naziri də Azərbaycanda dini tolerantlığın yüksək səviyyədə olmasından razılığını bildirmişdi.

24 mart 2003-cü ildə Bakıda Müqəddəs Jen-Mironosits kafedral kilsəsinin açılışına həsr olunmuş təntənəli mərasim keçirilib. Qeyd edək ki, Moskva və bütün Rusiya patriarxı II Aleksi Azərbaycana birinci səfəri zamanı Jen-Mironosits məbədini ziyarət edərək ona yeparxiyanın kafedral kilsəsi statusunu verib. Mərasimdə çıxış edən Azərbaycan Prezidenti Heydər Əliyev kafedral kilsənin təmirdən sonrakı açılışını təkcə pravoslavların həyatında deyil, bütün ölkə üçün önəmli hadisə olduğunu bildirmiş, Azərbaycandakı dini tolerantlığa toxunmuşdu: **"Azərbaycanda qədim dövrlərdən müxtəlif xalqların nümayəndələri yaşamış, bir çox xalqların dinləri mövcud olmuşdur. Azərbaycan və onun xalqı həmişə dini dözümlülüyü ilə fərqlənmişdir. Mən şadam ki, burada hamı bunu qeyd etdi və bu, həqiqətən, belədir. Azərbaycanda heç vaxt dini zəmində heç bir münaqişə, heç bir toqquşma olmamışdır. Hətta ötən əsrin 80-ci illərinin axırı - 90-cı illərinin əvvəllərindəki ağır dövrdə belə heç bir mənfi fakt qeydə alınmamışdır. Bu gün də müstəqil Azərbaycanda biz hər bir insanın azadlığı üçün, o cümlədən dini mənsubiyyət azadlığı, vicdan azadlığı üçün hər cür şərait yaratmışıq. Hər kəs hansı dinə mənsubdursa, həmin dinə ibadət edir. Lakin bu, Azərbaycanda insanların mehriban, qarşılıqlı anlaşma şəraitində yaşamasına mane olmur, burada milli və dini mənsubiyyətlə əlaqədar heç bir ayrı-seçkilik yoxdur".**

Bəli, dünyada çox az dövlət başçısı tapılar ki, tolerantlıqdan danışsın, dini dözümlülüyün təmin olunması üçün səylər göstərsin, vaxtaşırı müxtəlif konfessiyaların rəhbərləri ilə görüşsün, onların dini mərasimlərinə qatılsın. Bu istiqamətdə normal siyasətin olmamasının acı nəticələri hətta ən inkişaf etmiş ölkələrdə indi də özünü göstərir. İnsanların həssas hissi olan dini inanclarına hörmətlə yanaşması, çoxmillətli ölkə olan Azərbaycanda bütün dini icmalara illər boyu formalaşmış tolerant münasibətin davamlı təmin olunması ilə bağlı siyasi xəttin həyata keçirilməsi Heydər Əliyevin üstün cəhətlərindən idi.

2003-cü ildən sonra Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev də ulu öndərin nəcib əməllərini, əsasını qoyduğu mütərəqqi ənənəni layiqincə yaşadır, cəmiyyətimizdə dini-mənəvi dəyərlərin möhkəmlənməsinə xüsusi diqqət və qayğı ilə yanaşır. Təbii ki, bütün bunlar dövlətimizin başçısının birinci növbədə özünün müqəddəs dini dəyərlərimizə son dərəcə bağlılığından irəli gəlir. 2005-ci ilin martında Səudiyyə Ərəbistanında rəsmi səfərdə olarkən xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva ilə İslam dünyasının əsas müqəddəs şəhəri olan Məkkədə Kəbəni ziyarət edən Prezident İlham Əliyevin bölüşdüyü təəssüratlarla xalqımız öz rəhbərinin müqəddəs dəyərlərimizə nə qədər həssas münasibətinin şahidi oldu: **"Bu mənim həyatımda çox əlamətdar, tarixi bir gündür. Mən ikinci dəfədir ki, buranı - Məkkəni ziyarət edirəm və müqəddəs Kəbənin içərisində dualar edirəm. Birinci dəfə 1994-cü ildə Prezident Heydər Əliyev burada olarkən onunla bərabər olmuşam. Bu gün isə yenə də buradayam. Bu hissləri ifadə etmək çox çətindir. Bunu yaşamaq lazımdır. Mən hər bir müsəlmana bu gözəl hissləri yaşamağı arzulayıram. Mən bu gün çox xoşbəxtəm. Çox şadam ki, ürəyimdə olan niyyətlərimi ifadə etdim, dua etdim. Hesab edirəm ki, mənim həyatımda bu, çox böyük bir hadisədir".**

Prezident İlham Əliyev milli azlıqların hüquqlarının qorunmasını, onların dil və mədəniyyətinin inkişaf etdirilməsini dövlət siyasətinin prioritet istiqaməti olduğunu elan etməsi onun dini tolerantlıq məsələsində də Heydər Əliyev siyasətini davam etdirəcəyindən xəbər verir: **"Xalqlar arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin, milli-dini tolerantlığın hökm sürdüyü Azərbaycan cəmiyyəti bizim tarixi nailiyyətimizdir. Ölkəmizin bütün xalqları, o cümlədən yəhudi icması Azərbaycanda həmişə əmin-amanlıq şəraitində yaşamış, heç bir ayrı-seçkiliyə məruz qalmadan milli-mədəni özünəməxsusluğunu günümüzəcən qoruyub saxlamışdır. Müstəqil Azərbaycan dövləti bu gün də öz mütərəqqi tarixi ənənələrinə sadiqdir və müasir demokratik prinsiplərə uyğun olaraq ölkədə insan haqlarının təminatı, milli azlıqların qorunması, onların dil və mədəniyyətinin inkişaf etdirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir".**

Prezident İlham Əliyevin dini mərasimlərdə iştirak etməsi, bütün dini konfessiyaların əlamətdar günləri münasibətilə onları təbrik etməsi, ölkəmizdə müqəddəs məbədlərin bərpa olunmasına dövlət büdcəsindən vəsait ayrılması üçün göstərişlər verməsi dövlətimizin başçısının tolerantlığın qorunub saxlanmasına diqqətinin və ən əsası mənəvi dəyərlərimizə nə qədər bağlı olmasının təcəssümüdür. Son bir neçə ildə tarixi mədəniyyət abidələrinin, məscid və ziyarətgahların, yəhudi və xristian məbədlərinin, o cümlədən qədim alban kilsələrinin bərpası və təmiri, yenidən qurulması Azərbaycan gerçəkliyini və Azərbaycan hakimiyyətinin mükəmməl dini siyasətini tam qabarıqlığı ilə əks etdirən sağlam dini-mənəvi durumun göstəriciləridir.

2005-ci ilin fevralında Roma Papası II İohann Pavel Azərbaycan Prezidenti İlham Əliyevə məktubunda yazırdı: **"Azərbaycan din sahəsində öz tolerantlığı ilə seçilir. Bu, xalqınızın qədim və zəngin mədəniyyətindən irəli gəlir və bu gün ölkənizdəki kiçik katolik icmasına göstərilən hörmət də bunun təzahürüdür. Bununla əlaqədar olaraq təkcə hökumətinizə deyil, üç ay bundan əvvəl Vatikanda qardaşlıq ruhunda görüşdüyüm ölkənizin müxtəlif dini rəsmilərinə də minnətdarlığımı bildirirəm.**

**...Öz növbəsində İncilin əsl ruhuna sadiq qalan Azərbaycandakı katolik icması mənəvi dəyərlərin müdafiə edilməsi və ahəngdar sosial inkişafa töhfə istiqamətində bütün səylərini əsirgəməyərək, Azərbaycanın mədəni özünəməxsusluğuna hörmətlə yanaşır və onu tam şəkildə müdafiə edir".**

Son illərdə ölkəmizə səfər etmiş Ümumgürcüstan katolikos-patriarxı II İlia, İncilin təbliği konqreqasiyasının prefekti, kardinal Kreşentsio Sepen, ikinci dəfə Azərbaycana gələn Moskvanın və bütün Rusiyanın patriarxı II Aleksi Prezident İlham Əliyevlə görüşlərində Azərbaycandakı dini tolerantlıqdan razılıqla söz açmış, müxtəlif dini konfessiyaların fəaliyyəti üçün yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlıqlarını ifadə etmiş, Azərbaycanda yaşayan bütün xalqlar arasında daim həmrəyliyin olacağına əminliklərini bildirmişlər. Dini tolerantlığa verdiyi töhfələrə görə Prezident İlham Əliyev Rus Pravoslav Kilsəsinin birinci dərəcəli Müqəddəs Sergi Radonejski ordeni ilə təltif edilmişdir. Prezident İlham Əliyev Azərbaycan Respublikasının dövlət müstəqilliyinin təmin edilməsi, dini, milli-mənəvi dəyərlərin dirçəldilməsi, ölkədə tolerantlığın bərqərar olunması sahəsində göstərdiyi dəyərli xidmətlərinə görə Şeyxülislam ordeni ilə də təltif edilmişdir.

Bu ilin martında Azərbaycana səfəri çərçivəsində "Müqəddəs Məryəm" katolik kilsəsinə baş çəkən Polşa Prezidenti Lex Kaçinski də Azərbaycan dövlətinin bu kilsənin tikintisinə olan dəstəyindən razılığını ifadə etmişdir. Xatırladaq ki, bu kilsənin tikintisi haqqında qərar II İohann Pavelin Azərbaycana səfəri zamanı Prezident Heydər Əliyev tərəfindən verilmişdir.

Hazırda dini tolerantlığın təmin olunması məsələsi bir çox dövlətlərin qarşısında problem olaraq qalsa da, bu məsələdə bütün dünyaya nümunə olan çox gözəl Azərbaycan modeli var. Təbii ki, bu model, Azərbaycan hakimiyyətinin din siyasəti Heydər Əliyevin dövlət quruculuğu kursuna əsaslanır. Mövcud ictimai-siyasi sabitliklə yanaşı, dini tolerantlıq da belə uğurlu siyasətin məntiqi nəticəsidir. Azərbaycan hakimiyyətinin yeritdiyi bu uğurlu siyasi xətt dinlərarası münasibətlərin daim yüksələn xətt üzrə inkişafını təmin edəcəkdir.

*Əslində çox geniş anlayış olan tolerantlıq insani münasibətlərin, cəmiyyətdə gedən proseslərin və dövlətlərarası, millətlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir. Tolerantlıq təkcə dinlərin bir-birinə dözümlülüyü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına, mədəniyyətlərə dözümlülük deməkdir. Azərbaycan təkcə dini dözümlülüyə görə deyil, həm də burada yaşayan digər millətlərin adət-ənənələrinə, mənəviyyatına olan tolerantlığa görə bütün dünyaya örnəkdir.*

**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**